**TÜRKSOY türk aşıq şeirinin ən görkəmli nümayəndələrindən biri olan Aşıq Veysəlin anadan olmasının 125 illiyi münasibətilə 2019-cu ili Aşıq Veysəl ili elan etmişdir.**

**UOT821.512.161**

# AŞIQ VEYSƏL ŞEİRLƏRİNDƏ MİLLİLİYİN TƏZAHÜR FORMALARI

**Ülkər BAXŞIYEVA***

***Açar sözlər:*** *Türk, vətən sevgisi, xalq, Aşıq Veysəl, Atatürk*

Aşıq Veysəl türk aşıq şeirinin ən görkəmli nümayəndələrindən biridir. O, 1894-cü ildə Sivasın Sivrialan kəndində zəhmətkeş bir ailədə dünyaya göz açmışdır. Aşıq Veysəl uşaq yaşlarından zehni qabiliyyətinə görə yaşıdlarından çox fərqlənmişdir. Təxminən 7 yaşında ikən o, Sivasda yayılan çiçək xəstəliyinə yoluxmuş və bunun nəticəsində bir gözünün görmə qabiliyyətini itirmişdir. Lakin az keçməmiş acı taleyin qisməti kimi o biri gözü də dünya işığına həsrət qalmışdır. Aşıq Veysəlin atası Əhməd kişi oğlunu müxtəlif həkimlərə aparsa da, onun xəstəliyinə çarə tapılmamışdır. Özünün dediyi kimi, taleyin qismətindən qaçmaq mümkün olmamış, acı qismətlə barışmaq məcburiyyətində qalmışdır.

*Talih çile kader sözü bir etmiş*
*Her nereye gitsem gezer peşimde,*
*Kale mi feth etmiş ne şikar etmiş*
*Tutup bağladılar yedi yaşımda.*

Oğlunun bu talesizliyindən çox nigaran olan Əhməd kişi Veysələ saz almış və onu söz-saz sənəti, xalq hikməti ilə baş-başa buraxmağa qərar vermişdir. Bundan sonra aşıq sənətini, türk folklor mədəniyyətini öyrənən Veysəl bütün qəlbi ilə saza, şeirə bağlanmışdır. Atası onu 1919-cu ildə 25 yaşında ikən evləndirmişdir. 1921-ci ildə Aşıq Veysəl hər iki valideynini itirir. Az keçmir ki, talesiz Veysəlin dərdinin üstünə daha bir dərd əlavə olunur. Yoldaşı onu atıb gedir. Ata ümidinə qalan yeganə bir qızı da iki yaşında vəfat edir.

*Hiç razı değilim ben bu kaderden,*
*Birlikte doğmuşuz sulb-ü pederden,*
*Başım hali değil gamdan,kederden*
*Kusur bendemidir, yoksa işimde.*

Aşıq Veysəl bir qədər sonra ikinci dəfə evlənir. Onun ikinci evlilikdən altı övladı dünyaya gəlir.

Aşıq Veysəl çox təvazökar insan olmuşdur. O, 1933-cü ilə qədər başqa ozanların şeirlərini çalıb-oxumuşdur. Lakin dövrünün tanınan şairlərindən olan Əhməd Kutsi Tecerlə görüşdükdən sonra Aşıq Veysəl öz şeirlərinə mahnı bəstələməyə başlamışdır. Aşıq Veysəlin ilk çap olunan şeiri Qazi Mustafa Kamal Paşanın şərəfinə yazdığı şeirdir. Qeyd edək ki, o ulu Atatürkə bir neçə şeir həsr etmişdir. Aşıq Veysəl öz bədii külliyyatını yaradarkən ən çox Yunus İmrədən, Karacaoğlandan, Emrahdan, Dərdlidən və s. bəhrələnmişdir. Onun fiziki qüsurlu olmasına baxmayaraq, Türkiyənin

*filologiya üzrə fəlsəfə doktoru, AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu
e-mail: ulker.baxsiyeva@mail.ru

müxtəlif yerlərində saz-söz sənətini təbliğ etmiş, bu sənətin incəliklərini insanlara öyrətmişdir. Onun Arifiyə, Hasanoğlan,Kastamonu,Yıldızeli, Akpınar və s. yerlərdə saz müəllimi kimi fəaliyyət göstərməsi buna parlaq misaldır. 1952-ci ildə İstanbulda Aşıq Veysəlin möhtəşəm bir yubileyi keçirilmişdir. 1965-ci ildə Türkiyə Böyük Millət Məclisi tərəfindən Aşıq Veysəl türk dili və milli birliyinə göstərdiyi xidmətlərinə görə xüsusi mükafata layiq görülmüşdür.

Aşıq Veysəl kor olsa da təbiət vurğunu olmuşdur. O, peşəkar incəsənət bağbanı olmaqla yanaşı, həm də kor olmasına baxmayaraq, əlverişsiz relyefdə yerləşən ərazidə ilk dəfə bağ salan insan kimi də tanınmışdır. Belə ki, qardaşlarının kömәkliyi ilə ata-baba yurdu Sivrialanda ilk dəfə olaraq müxtəlif meyvələrdən ibarət meyvə bağı salması hamını təəccübləndirmişdir. Çünki indiyə qədər bir ağacın belə becərilmədiyi kəndində kor adamın bağ salması heç kimə inandırıcı görünmürdü. Kənd camaatı onun bu işini məzxərə edib “ata-babalarımızın heç vaxt əkə bilmədiyini bir kormu edəcək” demişlər. Bir neçə ildən sonra ağaclar böyümüş və bol bəhər vermişdir. Bu zaman kəndlilər “o kor deyilmiş, kor olan biz imişik” deyə Aşıq Veysələ etdikləri iraddan peşiman olmuşlar.

Görkəmli şair 21 mart 1973-cü ildə xərçəng xəstəliyindən vəfat etmişdir. Aşıq Veysəl düşüncəsinə görə bu dünya ilə axirət dünyası arasında bərabərlik hakimdir. Bunun bir səbəbi budur ki, onun gözlərindəki zahiri qaranlıq ruhuna çökə bilməmişdir. Çünki Aşıq Veysəlin qəlbindəki, ruhundakı sönməz günəşin işıqları onun bütün ruh aləminə, mənəvi dünyasına o qədər nur saçdı ki, bu işıqdan nəinki Aşıq Veysəl, hətta illər boyunca bütün xalq, insanlar, ədəbiyyat aləmi işıqlandı, bəhrələndi. Təxmini yarım əsrlik bir dövrdə yazıb-yaradan Aşıq Veysəlin şeirləri xalqın dilindən düşmür, həm janr, həm dil, həm də mövzu baxımından hər zaman sevilir.

*Ben giderim adım kalır,*
*Dostlar beni hatırlasın,*
*Düğün olur,bayram gelir*
*Dostlar beni hatırlasın.*
*Can kafeste durmaz uçar*
*Dünya bir han konan göçer*
*Ay dolanır yıllar geçer*
*Dostlar beni hatırlasın.*

Aşıq Veysəl yaradıcılığı mövzu, məzmun baxımından zəngindir.Onun həm Allah dərgahına həsr etdiyi, həm əxlaqi-didaktik məzmunlu, həm sevgi motivli, həm ayrılıq, taleyindən şikayət məzmunlu və s. şeirləri sənətindəki mövzu rəngarəngliyini əks etdirir. Aşıq Veysəl şeirlərinin əsas, aparıcı mövzularından birini də vətənpərvərlik və yurd sevgili motivli şeirlər təşkil edir. Aşıq Veysəl yaradıcılığında vətən sevgisinə həm ənənəvi, həm də özünəməxsus prizmadan yanaşma vardır. O, vətən sevgisi deyəndə sidq ürəklə, qəlbən vətənə bağlanmağı, vətən üçün ölməyi bacarmağı,vətənin hər daşı, torpağı uğrunda tökülən şəhid qanının qədrini, dəyərini bilməyi və s. diqqət mərkəzinə çəkir. Onun düşüncəsinə görə kiçikdən-böyüyə hamının qəlbi vətən eşqi ilə coşmalı, millətinə dəyər verən, onu sevən hər bir şəxs vətəni üçün yanmalı, onun taleyinə biganə qalmamalıdır.

*Vatan sevgisini içten duyanlar*
*Sıtkı ile çalışır benimseyerek*
*Milletine ulusuna uyanlar,*
*Demez neme lazım, neyime gerek.*

Aşıq Veysəl xalqın inkişafının, tərəqqisinin yeganə yolunu elmdə, təhsildə görmüşdür. “İnsan olmak için okumak gerek” deyən Aşıq Veysəl təhsilin həm insani keyfiyyətlərin, həm mədəni, elmi səviyyənin formalaşmasındakı rolunu önə çəkir.

*Olmak istiyorsan dünyada mesut*
*Hakka, halka yarayacaq bir iş tut*
*Çalıştır oğlunu, kızını okut,*
*İnsan olmak için okumak gerek.*

Aşıq Veysəl qələmi ilə vətənə xidmətindən qürür duysa da, şeirlərinin birində gözünün görməməsi üzündən vətənə lazımi səviyyədə xidmət edə bilməməsinə görə məyusluq ifadə edir. Belə ki, vətən uğrunda gedən döyüşlərdə düşmənə qarşı qılınc oynada bilmədiyinə və düşmən qanı tökmədiyinə görə təəssüf edir və bir növ öz qara bəxtindən şikayət edir.

*Nə yazık ki, bana olmadı kısmet*
*Düşmanı denize dökerken millet,*
*Felek kırdı kolum vermedi nöbet,*
*Kılıç vurmak için düşman başına.*

Aşıq Veysəl hər zaman türk oğlu olması ilə, türk əcdadlarının tarixən şanlı qəhrəmanlıq səhifələri yazması ilə fəxr etmiş və bundan olmazın dərəcədə qürur duymuşdur. Bu səbəbdən o, türk kimi yaşamağı şərəf bildiyi kimi, türk kimi ölməyi, türk kimi şəhid olmağı da ən xoşbəxt məqam kimi dəyərləndirir.

*İftihar ettiğim büyük muradım*
*Türkoğluyum temiz Türktür ecdadım,*
*Şehit ismi yazılsaydı soyadım,*
*Kanım ilə mezarımın taşına.*

Aşıq Veysəl şeirlərində milli birlik ideyasını irəli sürərək millətini daim tərəqqiyə səsləmişdir. Aşıq Veysəl indiki halda xalqın xoşbəxtliyini onların bir bayraq, bir məqsəd və bir amal altında birləşməsində görürdü. O, dünya türklərini bir kökdən, bir soydan olduğuna görə bir-birinə qardaş hesab edirdi. Şair bir sıra şeirlərində xalqa üz tutaraq "xalqın dərdi sənin də kədərin, dərdin olmalıdır" deyə müraciət edirdi.

*Birleşiriz bir bayrağın altında*
*Biz Türklərin ikilik yok aslında,*
*Yanar tutuşuruz vatan aşkında,*
*Hepimiz bu yurdun evlatlarıyız.*

Aşıq Veysəl türk gəncliyinin işıqlı gələcəyinə yüksək inam nümayiş etdirmişdir. O, müasir Türkiyə gəncliyini Atatürkün yaratdığı dövlətçilik ənənələrinə sadiq olmağa, müəyyələşdirdiyi düzgün yolu davam etdirməyə səsləyirdi. Şair şeirlərində həm də gənclərin elmlə tərəqqi edərək işıqlı gələcək qurmasına çox böyük ümidlər bəsləyirdi.

*Kitaplar yazılmış nasihat dolu*
*Birlikte güclenir gencliğin kolu*
*Gençliğe emanet Atatürk yolu,*
*Hepimiz bu yurdun evlatlarıyız.*

Aşıq Veysəli hər zaman dövlətinin ictimai-siyasi, mədəni, iqtisadi inkişafı düşündürmüşdür. O, hər zaman xalqını rifah içində, mədəni səviyyəsi yüksək,elmli görmək istəmişdir. Aşıq Veysəl təfəkküründə vətən anlamı dar mənada deyildi, yəni o, vətən deyəndə Türkiyəni yalnız coğrafi anlamda nəzərdə tutmurdu. Aşıq Veysəl anlamında vətən hər şeydən əvvəl torpaqdır, əcdadların əmanətidir, millətin tarixidir, onun yaratmış olduğu mədəniyyətin tarixidir, iman yeridir, inanc mənbəyidir. Bu mənada Aşıq Veysəlin vətən düşüncəsi bir qədər həm fərqli, həm də fəlsəfi, amma eyni zamanda konkret görünür. O, hər bir şəxsi vətəninin inkişafı, tərəqqisi uğrunda xidmətə çağırır, və-

tənə, xalqa, torpağa canı-qanı ilə, bütün mənəviyyatı ilə sevgi göstərməyə səsləyirdi. Şeirlərində Aşıq Veysəlin iç dünyasının bu amalla, bu ideya ilə hər an alışıb-yandığını görmək mümkündür.

*Vətən sevgisini içten duyanlar,*
*Sıtkı ile çalışır benimseyerek,*
*Milletine ulusuna uyanlar,*
*Demez neme lazım, neyime gerek.*

Bildiyimiz kimi, XX əsrin əvvəllərindən etibarən dünyada elmi-texniki tərəqqi prosesləri baş verirdi. Cəmiyyətdə baş verən ictimai-iqtisadi proseslər elmi-mədəni inkişafa da təsirsiz ötüşmürdü. Aşıq Veysəl Türkiyənin də Avropa səviyyəsində inkişaf etməsini istəyirdi. O, xalqının qəflət yuxusundan oyanmasını ilk növbədə xalqın savadlanmasında görürdü. O, düzgün olaraq fikirləşirdi ki, Avropa indiki tərəqqisinə yalnız elmi inkişaf sayəsində gəlib çatmışdır. Ona görə də öz ölkəsində Avropa modelinin yaranmasına xüsusi maraq göstərir və onu daim təbliğ edirdi. Aşıq Veysəl müasirliyin tərəfdarı olsa da, ancaq müasirliyi milli-mənəvi dəyərləri itirmədən, islami dini-dəyərləri qoruyaraq inkişaf etdirməyi tövsiyə etmişdir.

*Zarar gelmez sana kaçınma sazdan,*
*Günahın korkusu çıkmıyor bizden*
*Vazgeç demiyoruz sana namazdan,*
*Uyan bu gafletten uyuma yurttaş.*

Tarixə nəzər saldıqda görürük ki, türk torpaqları tarixən cəng meydanları olmuş, bu torpaqlar neçə-neçə qəhrəman igidlər yetirmişdir. Bu igidlərin adları tariximizə qızıl hərflərlə yazılmışdır. Bunlara Atilla, Şah İsmayıl Xətai, Sultan Süleyman Qanuni, İldırım Bəyazid, Əmir Teymur və s. nümunə göstərmək olar. Əcdadlarımızdan miras qalan bu qəhrəmanlıq missiyasını XX əsrdə Atatürk davam etdirmişdir. Mustafa Kamal Atatürk Aşıq Veysəlin dediyi kimi "ölmüş vətənə" yenidən can verdi. Türk xalqı Atatürkün düzgün siyasi liderliyi və qanı bahasına öz hürriyyətini qazandı, öz cümhuriyyətini qurdu. Bu qələbə asanlıqla deyil, xalqın dönməz mübarizə əzmi sayəsində, düşmənə qarşı bir yumruq kimi birləşərək son nəfəsinə qədər mübarizə aparması sayəsində qazanılmışdır.

*Atatürkün Türkiyenin ihyası,*
*Kurtardı vatanı düşmanımızdan,*
*Canını bu yolda eyledi feda*
*Bir dahi geçelim öz canımızdan.*

*İddiaçı Türkiyenin insanı*
*Çalışmakla kazandık biz vatanı,*
*Aç kurt gibi parçaladık düşmanı,*
*Şecaat görünce aslanımızdan.*

Aşıq Veysəl vətəninin hər bir guşəsini,məmləkətinin hər qarışını sevmişdir.O, Atatürkün xalq, dövlət naminə apardığı siyasəti sevə-sevə təbliğ etmiş, aparılan siyasət nəticəsində Türkiyə Cümhuriyyətinin abadlaşan, inkişaf edən simasını ayrı-ayrı şeirlərində əks etdirmişdir. Aşıq Veysəlin "Ziyaret eyledim Koca Sivası", "Karaözü", "Erzincan", "Yurt ürünleri", "İstanbul" və s. şeirlərində adları çəkilən doğma ellər böyük sevgi ilə vəsf edilmişdir.

"Ziyaret edelim Koca Sivası" şeirində qədim tarixə malik olan Sivas şəhərinin günü-gündən inkişafından danışılır. Sivasın tarixi, bu günü mövzu obyektinə çevrilərək onun haqqında fikirlər yürüdülür. Sivas zəngin, qədim mədəniyyətə, ədəbiyyata malik olan bir şəhər kimi mədh olunur. Sivas torpağının Ruhsati Pir Sultan kimi tanınmış şair yetişdirməsini şair qürur hissi ilə qeyd edir.

*Cevre yanı Yıldız Tecer kar imiş,*
*İnsanların bağı bir ikrar imiş*
*Çok küvvetli şairleri var imiş,*
*Ruhsatı Pir Sultan varı Sivasın.*

"Karaözü" şeirində isə Karaözünün həm mədəni,həm iqtisadi inkişafına görə, həm də burada yaşayan insanların mərdliyinə, döyüşlərdə göstərdiyi şücaətinə görə öndə dayanmasından bəhs edilir. Şair şeirdə Karaözülüləri Atatürk məktəbinin davamçısı hesab etmişdir. Tanınmış təkkə şairi, təsəvvüf ədəbiyyatının görkəmli nümayəndəsi Sadık Babanın Karaözü sakini olması da şeirdə öz əksini tapmışdır.

*Bu köyü kuranlar hayırlı kurmuş*
*Veysel der bu köyde kimler oturmuş.*
*Şair Sadık felsefeden okurmuş,*
*Her biri bir ehl-i dildir Kar'özü*

"Yurt ürünler" şerində şair vətəninin torpağının necə məhsuldar, bol-bərəkətli olmasından danışır. Belə ki, Amasyanın alması ilə, Zilin bəhməzi ilə, Tokadın gözəl meyvə bağları ilə, Ərzurumun qaymağı ilə, Konyanın buğdası ilə, Ayıntabın çiy köftəsi ilə, Mersinin portağalı ilə, Marasın düyüsü ilə, İzmirin üzümü ilə, Bursanın ipək dəsmalı ilə, Samsunun tütünü ilə, Urfanın atı ilə, Trabzonun fındığı ilə və s. məşhurluğu şeirdə sevgi ilə yer alır.

*Adanada biter pamuk*
*Geze geze hep usanduk,*
*Trabzonda çoktur fındık,*
*Yesem amma yesem ama.*

Aşıq Veysel "İstanbul" şeirində İstanbul şəhərinin gözəlliklərini bədii bənzətmələrdən istifadə edərək vəsf etmişdir. Şair İstanbul şəhərinin dənizlər şəhəri olmasını, əsrarəngiz coğrafi relyefdə yerləşməsini Allahın möcüzəsi hesab etmiş, bu möhtəşəm liman şəhərini dünya ticarəti mərkəzinin beşiyi adlandırmışdır. Şair Fateh Mehmet Sultan tərəfindən İstanbulun türk yurduna çevrilməsindən qürur duyduğunu ifadə edir. O, şeirdə zəngin mədəniyyətə, qədim tarixə, gözəl mənzərəyə malik İstanbul şəhərini türklərin ana şəhəri adlandırır.

*Fatih Mehmet Sultan temeli kurdu,*
*Ondan sonra olduTürklerin yurdu*
*Edirneden gelen o büyük ordu*
*Ayyıldız bayrak nurun İstanbul.*
*Denizler kilidi boğazların var,*
*Dünyaya haykıran avazların var,*
*Yılmaz Türk ordusu şahbazların var.*
*Ferah tut gönlünü şerin İstanbul.*

Cümhuriyyət dövrü qurulana qədər Osmanlı imperiyasında Avropaya meyillənmə, Qərbyönümlü ədəbiyyata maraq üstünlük təşkil edirdi.Bunun nəticəsində türk ədəbiyyatında Avropa sözləri və kəlmələri özünə yer almağa başlamışdır. Lakin bunlardan fərqli olaraq türk aşıq ədəbiyyatının görkəmli nümayəndəsi Aşıq Veysəlin dili olduqca sadə və xalqın anlayacağı dildə idi. Çünki o, Yunus İmrə davamçısı idi, şeirləri xalq çeşməsindən bəhrələnmişdir. Nəzərə almaq lazımdır ki, bir müddət türk ədəbiyyatında Avropa ədəbiyyatına meyillənmə başlasa da, xalq şeir ənənəsinin təsiri ilə yenidən milli ədəbiyyata, milli-mənəvi dəyərlərə qayıdış başlandı. Aşıq Veysəl yaradıcılığı bu mənada milli kökə bağlılığın ən yüksək zirvəsində dayanır. Çünki Aşıq Veysəl yaradıcılığında türk

milli-mənəvi dəyərləri qorunub saxlanılmışdır. Türk folklor ənənəsinə söykənərək xalq yaradıcılığından bəhrələnmiş, milli amalı qoruyaraq müasirlik səviyyəsinə çatmış Aşıq Veysəl yaradıcılığında əxlaqi-didaktik məzmunun, vətən sevgisinin, dini-islami motivlərin, sevgi məzmununun və s. üstünlük təşkil etməsi təbiidir. Belə demək mümkünsə, Aşıq Veysəl yaradıcılığı bilavasitə xalqa xidmət, xalqın ruhunu oxşamaq, xalqın mənəvi dəyərlərini zənginləşdirmək baxımından əhəmiyyət daşıyır. Bu səbəbdən də şairin ədəbi irsinin təsir dairəsi geniş olmuş, əsərləri xalqın dilində əzbərə çevrilmiş, şeirlərinə neçə-neçə mahnılar bəstələnmişdir.

## ƏDƏBİYYAT

1.Aşık Veysel. (1991). Dostlar beni hatırlasın. İstanbul
2.N.S.Banarlı. (1998). Resimli Türk edebiyatı tarihi 2cilddə, II cild. İstanbul
3.P.Əfəndiyev. (1992). Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı
4.E.Alkan. (1991). Kör oldum Veysel oldum. İstanbul.
5.Ahmet Özdemir. (2010). İki Kapılı Handa Aşık Veysel. İstanbul
6.Z.Yaqub. Aşıq Veysəl dünyası. Ədəbiyyat qəzeti, 2013, 13 sentyabr, s.4

***Резюме***

***Улькер Бахшиева***

***Формы проявления национализма в стихотворениях Ашуга Вейсала***

***Ключевые слова:*** *тюрк, любовь к родине, народ, Ашык Вейсель, Ататюрк*

Творчество Ашыка Вейселя основано на национальных моральных ценностях. В статье анализируется тематика творчества Ашыка Вейселя.Насколько нам известно, главное место в творчестве Ашыка Вейселя занимают национально-духовные ценности. Для статьи характерны националистические факторы, характерные для творчества Ашига Вейзеля, любовь к нации, любовь к родине и т. д. факторы, вовлеченные в анализ. В его творчестве доминируют темы морально-дидактического содержания, патриотической любви, религиозно-исламских мотивов, любовные стихи и т.д. Можно сказать, что творчество Ашыка Вейселя призвано обогащать духовные ценности людей и прививать патриотизм и любовь к родине.

***Summary***

***Ulker Baxshiyeva***

***Forms of Nationalism in Ashug Veysel's poetry***

***Key words:*** *Turk, patriotism, nationality, Ashug Veysel, Ataturk*

Ashug Veysel's creativity is based on national moral values. The article analyzes the themes of AshugVeysel's works. As is known, national and spiritual values occupies the main place in the work of Ashug Veysel.The article deals with the nationalistic factors characteristic of Ashug Veysel's creativity. For instance, the love of the nation, the love of the homeland, and other factors are involved in the analysis. His work is dominated by themes of moral and didactic content, patriotic love, religious and Islamic motifs, love poems, etc. It can be said that the work of Ashug Veysel is intended to enrich the spiritual values of people and inculcate high spirit of patriotism and love for the country.